# ŞƏHƏRLƏR VƏ REGIONLAR: UŞAQLARA QARŞI SEKSUAL ZORAKILIĞA SON QOYULMASI HAQQINDA PAKT

one in five
un sur cinq

Qiymətləndirmələrə əsasən, Avropada beş uşaqdan biri müəyyən formada seksual zorakılığın qurbanına çevrilir. Avropa Şurası «**BEŞDƏN BİRİ**» kampaniyasına başlayıb, bunda məqsəd hər kəsin problem barədə məlumatlılığını artırmaqdan və Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının (Lansarote Konvensiyasının) Avropa Şurasının üzvü olan 47 dövlət tərəfindən, eləcə də daha geniş miqyasda həyata keçirilməsini təşviq etməkdən ibarətdir.

Yerli və regional hakimiyyət orqanları konqressi Avropa Şurasının «BEŞDƏN BİRİ» kampaniyasına öz töhfəsini verərək **Şəhərlərin və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktını** hazırlayıb. Bu sənəddə uşaqların tələbatlarına uyğunlaşdırılmış xidmətlərin göstərilməsi, cəmiyyətdə uşaqların seksual zorakılıqdan müdafiə edilməsi və belə halların qarşısının alınması məqsədi ilə yerli və regional səviyyələrdə həyata keçirilməli olan təşəbbüslər və siyasətlər sadalanır.

**www.coe.int/congress-oneinfive**
**congress.oneinfive@coe.int**

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE